

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 9 (21.670)

*14 yanvar 2017-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Yanvarın 13-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində inşası başa çatdırılan sərhəd gözətçi gəmisində yaradılan şəraitlə tanış olub, “Tufan” tipli növbəti sərhəd gözətçi gəmisinin təməlini qoyub və xidməti istifadəyə verilən xüsusi təyinatlı texnikalara baxıb.

Dövlət Sərhəd Xidmətinin rəisi – Sərhəd Qoşunlarının komandanı Elçin Quliyev Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verib.

Sonra Prezident, Ali Baş Komandan İlham Əliyev Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində “Tufan” tipli növbəti sərhəd gözətçi gəmisinin təməlqoyma mərasimində iştirak edib.

Azərbaycan Prezidenti Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin sərhəd gözətçi gəmilərinin fəaliyyətini əks etdirən filmə baxıb, onların texniki göstəriciləri ilə tanış olub.

Dövlətimizin başçısı yeni inşa edilmiş “Tufan” tipli sərhəd gözətçi gəmisində yaradılan şəraitlə maraqlanıb.

Prezident, Ali Baş Komandan İlham Əliyev sərhəd gözətçi gəmilərinin keçidinə baxıb.

Azərbaycan Prezidenti İlham Əliyevə Dövlət Sərhəd Xidməti üçün yeni alınan avtonəqliyyat vasitələri və digər xüsusi texnikalar barədə də məlumat verilib.



## Vətən sevgisinin, fədakarlıq və zəhmətin bəhrəsi:

# Müasir Naxçıvan

***Bizim əksəriyyətimiz ötən əsrin 90-cı illərinin əvvəllərindən Naxçıvanda başlanan misilsiz quruculuq işlərinin şahidləriyik. Bəli, əksəriyyətimiz qısa zamanda bu diyarın necə inkişaf etdiyini görmüşük. Bu inkişafı daş üstə daş qoyan, qurub-yaradan, xalqın dar günündə onun yanında olan, qurub-yaratdıqlarının sabahını düşünən şəxsiyyətlər təmin edə bilərlər.***



Dünyada heç bir hadisə təsadüfən baş vermir. Hər hadisənin kökündə zamanın və dövrün tələbi var. Ötən əsrin 90-cı illərinin əvvəllərində Naxçıvanda baş verən məlum hadisələr də özü ilə bərabər yeni tələblər, ehtiyaclar gətirdi. Bu tələb və ehtiyaclardan ən mühümü isə müdrik rəhbər, xalqa yanan insan tələbi idi. Bu, zamanın elə bir ehtiyacı idi ki, muxtar respublika əhalisinin gələcək taleyi bütövlükdə bundan asılı idi.

Ulu öndərimizin Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdə muxtar respublikamızı gözləyən işğal təhlükəsi aradan qaldırıldı, blokada vəziyyətində yaşayan və böyük çətinliklərlə üzləşən muxtar respublika əhalisində sabahkı günə böyük inam yarandı. Azərbaycan xalqının təkidli tələbi ilə ulu öndərimiz yenidən siyasi hakimiyyətə qayıdandan sonra strateji əhəmiyyətli Naxçıvan Muxtar Respublikası etibarlı əllərə əmanət edilməli idi. 1960-cı il yanvarın 14-də sadə bir zəhmətkeş ailəsində dünyaya göz açan, Heydər Əliyev məktəbində püxtələşərək böyük dövlətçilik yolu keçən Vasif Talıbovun Naxçıvan Muxtar Respublikasının rəhbəri seçilməsi ilə muxtar respublikanın tarixində yeni mərhələnin təməli qoyuldu. Heydər Əliyev yoluna sədaqət, vətən sevgisi, Naxçıvanın taleyinə və gələcəyinə cavabdehlik hissi yeni mərhələdə muxtar respublikanın bütün istiqamətlər üzrə sürətli inkişafını təmin etdi.

... Siyasi fəaliyyətdə uğur qazanmaq üçün ictimai inam və etibar başlıca şərtdir. Yalnız öz fəaliyyətini xalqa layiqli xidmət üzərində quran və bunu əməli işi ilə sübuta yetirən şəxslər yüksək etimada layiqdirlər. Elə bu səbəbdən də ictimai rəyə əsaslanan, insanların maraq və mənafeyinə xidmət edən siyasi fəaliyyət hər zaman dəstəklənir, təqdir olunur. Böyük fransız maarifçisi Volter vaxtilə yazırdı ki, “İş ideya üçün yaranmır, ideya iş üçün yaranır”. Bu illərdə muxtar respublikanın keçdiyi hərtərəfli inkişaf yolu da məhz xalq və dövlət üçün formalaşan ideyanın real həyatda təzahürünə çevrilmişdir. Bu gün Naxçıvanda hansı sahəyə baxsan, orada kompleks islahatların aparıldığının şahidi olarsan. Ötən dövr ərzində elə böyük nailiyyətlər əldə edilmişdir ki, bu uğurların blokada şəraitində qazanılması inanılmaz gerçəklikdir. Naxçıvanın kompleks inkişafa qovuşması düzgün idarəetmənin nəticəsi, Vətən sevgisinin, yurd sahibliyinin misilsiz nümunəsidir.

Muxtar respublikamızda sosial-iqtisadi inkişaf sahəsində əldə olunan nəticələr seçilən düzgün siyasi xəttin bəhrəsi olmaqla yanaşı, həm də rəhbər faktorunun real siyasi mühitdə təsdiqidir. 1996-cı ildən ötən dövrdə bütün makroiqtisadi göstəricilərin artım tempi təmin edilmişdir. Bir sıra əsas göstəricilər baxımından son illərdə yaradılmış iqtisadi potensial və qazanılmış uğurlar muxtar respublikamızın yarandığı 1924-cü ildən keçən 70 ildən artıq bir dövrdə əldə olunanları xeyli üstələyir.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, cəmiyyətin inkişafının əsas şərtlərindən biri elm və təhsildir. Müasir dövrün tələblərinə cavab verən kadr potensialının formalaşdırılmasında, çevik və işlək mexanizmlər üzərində dövlət idarəçiliyi sisteminin yaradılmasında bu, vacib məsələdir. Bu baxımdan Naxçıvan Muxtar Respublikasındakı elm və təhsil quruculuğu yeniləşmənin əsas hərəkətverici qüvvəsi rolunu oynayır.

Təhsil infrastrukturunun möhkəmləndirilməsi, yeni məktəb binalarının tikilməsi dünya təhsil sisteminə inteqrasiya istiqamətində atılan mühüm addımlardır. Muxtar respublikada müasir informasiya texnologiyaları ilə təmin olunmuş yüzlərlə məktəb binası istifadəyə verilmiş, orta ixtisas və ali təhsil məktəbləri üçün tədris korpusları tikilmişdir. Havuş, Bist, Nəsirvaz, Kükü, Şahbulaq, Teyvaz kimi ucqar dağ kəndlərinin məktəblərində şagirdlərin kompüterlərdən, elektron lövhələrdən, müasir laboratoriyalardan, fondunda on minlərlə ədəbiyyat olan kitabxanalardan və internetdən istifadə etməsini təkcə təhsilin inkişafı sahəsində görülən cari işlər kimi səciyyələndirmək mümkün deyil.

Bu gün muxtar respublikada rayonların tarazlı inkişafı təmin edilmiş, kəndlə şəhər arasındakı fərq aradan qaldırılmışdır. Şəhər və rayon mərkəzlərində, kənd yaşayış məntəqələrində istifadəyə verilən yeni sosial obyektlər, tikilən inzibati binalar, yaradılan istehsal sahələri, açılan iş yerləri, ilk növbədə, əhalinin sosial problemlərinin həllinə və nəticə etibarilə insanların məskunlaşmasına, bölgələrin inkişafına səbəb olmuşdur. Zəngin tarixi və mədəniyyəti, gözəl təbiəti ilə seçilən qədim Naxçıvan artıq yüksək yaşayış səviyyəsi, abad yaşayış məntəqələri ilə Azərbaycanın nümunəvi muxtar respublikasına çevrilmişdir.

İntibaha qovuşan müasir Naxçıvanın inkişafında əsas xarakterik cəhətlərdən biri də ərzaq və enerji təhlükəsizliyinin təmin olunmasıdır. Muxtar respublikada bu iki amil həyata keçirilən islahatların prioritet istiqamətini təşkil edir. Əgər 90-cı illərin əvvəllərində mağazalarda ən adi bir ərzaq məhsulu tapmaq müşkülə çevrilmişdisə, indi, demək olar ki, muxtar respublikada bütün ərzaq növlərinə olan tələbat yerli istehsal hesabına ödənilir, torpaqlarımız əkilir, yeni suvarma sistemləri yaradılır. Bu gün muxtar respublikamızın hər bir bölgəsini sarı kəhraba zəmiləri, bağlar, bağçalar bəzəyir. Bütün bunlar çəkilən böyük zəhmətin bəhrəsidir.

Əvvəllər işıqsız, mavi yanacaqsız, susuz qalan yaşayış məntəqələri indi fasiləsiz olaraq elektrik enerjisi ilə, mavi yanacaqla, içməli su ilə təmin olunub. İndi ucqar dağ kəndinin infrastruktur təminatı baxımından paytaxt Naxçıvan şəhərindən heç də geridə qalmaması dövlətimizin hər bir yaşayış məntəqəsinə eyni cavabdehlik hissi və məsuliyyətlə yanaşmasından xəbər verir.

On-on beş il bundan əvvəl kiçik bir müayinə üçün qonşu ölkələrə üz tutan muxtar respublika sakinləri üçün ən müasir şəfa ocaqları istifadəyə verilmiş, səhiyyə müəssisələri müasir avadanlıqlarla təmin edilmişdir. Görülən işlər bir daha sübut edir ki, dövlətimizin ən qiymətli sərvəti onun vətəndaşlarıdır. Məhz bu prinsip üstün tutulmaqla əhalinin sağlamlığının qorunması, müasir tibbi avadanlıqlarla təchiz olunmuş səhiyyə ocaqlarının inşası muxtar respublikada səhiyyə sahəsində reallaşdırılan mühüm islahatlardandır. Müasir diaqnostika-müalicə və doğum mərkəzlərində, rayon mərkəzi xəstəxanalarında, dispanserlər, sahə xəstəxanaları, həkim ambulatoriyaları və feldşer-mama məntəqələrində insanların müayinə və müalicəsi günün tələbləri səviyyəsində təşkil olunmuşdur.

Muxtar respublikada həyata keçirilən sosial siyasətin mərkəzində insan amili dayanır. Hər hansı sahə üzrə infrastruktur yaradılarkən, ilk növbədə, əhalinin rahat yaşayışının təminatı ön planda saxlanılır. Buna yüzlərlə misal gətirmək olar. Elə götürək son illər şəhər və rayon mərkəzlərində içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması tədbirlərini. Muxtar respublikanın mövcud təbii potensialından istifadə edilməklə yüksək mühəndis-texnoloji yeniliklər əsasında aparılan bu işlər ən müasir infrastrukturun qurulmasına və insanların kommunal-məişət şəraitinin yaxşılaşdırılmasına hesablanıb.

Müasir dövrdə inkişafın başlıca şərtlərindən biri olan informasiya-kommunikasiya texnologiyalarının təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə geniş tətbiqi, elektron kitabxanaların yaradılması, əhaliyə göstərilən rabitə xidmətlərinin səviyyəsinin yüksəldilməsi üçün yeni nəsil ATS-lərin quraşdırılması, hətta ucqar dağ kəndlərinin fiber-optik bağlantılarla təmin olunması və genişzolaqlı internet xidmətinin göstərilməsi inkişafın tərkib hissələridir.

Bir zamanlar düşmən qarşısında müdafiəsiz, silahsız qalan Naxçıvan Muxtar Respublikasını indi ən müasir silahlarla təchiz edilmiş Əlahiddə Ümumqoşun Ordusu qoruyur. Bu ordu istənilən an düşmən mövqelərinə sarsıdıcı zərbələr vurmaq iqtidarındadır. Düşmən ölkənin rəsmilərinin tez-tez öz çıxışlarında Naxçıvan faktorundan, Naxçıvanın hərbi potensialının onlar üçün böyük təhlükə yaratdığından söz açması hərbi sahədə muxtar respublikanın keçdiyi inkişaf yolundan xəbər verir. Naxçıvan əhalisində bu sahədə yaranan əminlik sərhədyanı yaşayış məntəqələrinin insanlarını heç bir qorxu olmadan yaşamağa və işləməyə ruhlandırır. Artıq düşmən yaxşı bilir ki, atdığı hər hansı bir təcavüzkar addım onların özləri üçün ciddi itkilərə səbəb olacaqdır.

Hər bir xalqın tarixi keçmişinin öyrənilməsində abidələr xüsusi əhəmiyyət daşıyır. Buna görə də tarixi və mədəni irsi qorumaq hər birimizin vətəndaşlıq borcudur. Bu mənada, babalarımızın əziz yadigarlarını bərpa etmək keçmişi qorumaq, dünənin ən yaxşı ənənələrini sabaha çatdırmaq deməkdir. Bu gün muxtar respublikanın hər qarışında bərpa olunmuş tarix incilərini – qalaları, türbə və məqbərələri, dini-mədəni obyektləri görmək mümkündür. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Hər bir yerin tarixi yalnız kitablarda deyil, onun torpağında, tikililərində, abidələrində yaşayır. Tarixi, Vətənini sevən insanlar abidələri qoruyub gələcək nəsillərə ötürməlidir. Hər birimiz tariximizlə qürur hissi keçirməli, bütün dünyaya göstərməliyik ki, ulu babalarımız, əcdadlarımız belə zəngin tarixə malik olublar”.***

*Ardı 2-ci səhifədə*

Düşüncələrdə dəyişən Naxçıvan, həm də insanların düşüncəsini dəyişir. Bu gün muxtar respublikada əhalinin həyat səviyyəsi getdikcə yüksəlir, insanların torpağa bağlılığı, yurd sevgisi artır. Yaşayış məntəqələri müasirləşir, əsas ərzaq məhsullarına olan tələbat yerli istehsal hesabına ödənilir. Naxçıvan şəhəri zirvə görüşlərinə, beynəlxalq tədbirlərə, idman yarışlarına ev sahibliyi edir. Artıq bu gün muxtar respublika sakinlərini nə ərzaq çatışmazlığı, nə də enerji qıtlığı düşündürür. İndi hər bir naxçıvanlı daha da yaxşı işləmək, ölkəmizə daha da faydalı olmaq barədə fikirləşir.

Naxçıvanda görülən işlər ölkə Prezidenti tərəfindən də hər zaman yüksək qiymətləndirilmişdir. Yanvarın 11-də Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri zamanı da muxtar respublika əhalisi ölkə rəhbərinin bu qədim diyara nə qədər önəm verdiyinin bir daha şahidi oldu. Naxçıvan şəhər 3 nömrəli tam orta məktəb binasının istifadəyə verilməsi münasibətilə keçirilən mərasimdə dövlət başçısı tərəfindən səsləndirilən fikirlər hər bir Naxçıvan sakini tərəfindən minnətdarlıqla qarşılanmışdır: *“Çox şadam ki, Naxçıvan uğurla, sürətlə inkişaf edir, böyük quruculuq, abadlıq işləri aparılır. Bu, mənim Prezident kimi muxtar respublikaya sayca 13-cü səfərimdir. On üç il ərzində üçüncü dəfədir ki, Naxçıvandayam. Bu rəqəm özlüyündə bir göstəricidir, onu göstərir ki, Naxçıvanın inkişafı daim diqqət mərkəzindədir. Ulu öndər Heydər Əliyev həmişə Naxçıvana böyük diqqətlə yanaşırdı, respublikanın problemlərinin həlli üçün müvafiq göstərişlər verirdi və böyük qayğı göstərirdi. Mən də bu siyasəti davam etdirirəm və Naxçıvana həmişə çox böyük diqqət verilir, böyük qayğı göstərilir. Çox şadam ki, respublikanın uğurlu inkişafı təmin edilir. Bu münasibətlə respublikanın rəhbərliyini və sakinlərini təbrik etmək istəyirəm. Doğrudan da son illər ərzində Naxçıvan böyük inkişaf yolu keçmişdir. Naxçıvan şəhərinin abadlaşdırılması, gözəlləşdirilməsi, infrastruktur layihələrinin icrası, bütün şəhər və kəndlərin abadlaşması prosesi onu göstərir ki, respublika möhkəm ayaqda dayanır”.*

Bu gün hər bir naxçıvanlının ümumi fikri belədir ki: biz Vətən sevgisi üzərində ucaldılan, arzuların çin olduğu, inkişaf və tərəqqinin davamlı xarakter daşıdığı, təhlükəsizliyin tam təmin edildiyi, ləyaqətli, vətənpərvər gəncliyin yetişdirildiyi, iradənin bütün çətinliklərə qalib gəldiyi bir diyarda – muxtar dövlətdə yaşayırıq.

Müdriklik ali məqsədi cari məqsədlərdən fərqləndirmək qabiliyyətidir. Xarizmatik şəxsiyyətlər siyasi varislik ənənələri formalaşdıraraq böyük müdrikliklə irəli sürdükləri mütərəqqi ideyaların davamlılığını təmin edir, gələcəyə hesablanmış ideoloji-siyasi və iqtisadi əsaslara söykənən güclü idarəetmə modeli yaradırlar. Artıq belə bir model göz qabağındadır – bu, inkişafın Naxçıvan modelidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi: ***“Bizi qarşıda mühüm vəzifələr gözləyir. İqtisadi inkişafın nəticələrinin əhalinin güzəranının yaxşılaşmasına yönəldilməsini təmin etməli, “hakimiyyət xalq üçündür” – tezisini bir an da olsun, yaddan çıxartmamalıyıq. Bu gün vəzifə ümummilli liderimizin arzularını həyata keçirməkdən, onun görmək istədiyi kimi, muxtar respublikamızı qurub-yaratmaqdan, onun istəyinə uyğun olaraq ikiqat məsuliyyətlə işləməkdən ibarətdir. Bu, bütün dövlət qulluqçuları, nazirlik, komitə rəhbərləri və yerli icra hakimiyyəti başçıları üçün əsas tələbdir. Qarşıdakı dövrlərdə ətalət, passivlik göstərməyə, pis işləməyə bizim, sadəcə olaraq haqqımız yoxdur. Çünki söhbət ümumi evimiz olan Azərbaycanı möhkəmləndirməklə onun müstəqilliyini qorumaqdan gedir. Söhbət ümummilli liderimizin müəyyənləşdirdiyi yolla getməklə bu dahi şəxsiyyətin planlarının, arzularının yerinə yetirilməsindən gedir”.***

**“Şərq qapısı”**

## “Əziz Əliyev: həyat yolu” mövzusunda interaktiv dərs keçilib




***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev “Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 120 illik yubileyinin keçirilməsi haqqında” 2016-cı il 18 noyabr tarixli Sərəncam imzalayıb. Yubileyin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 21 noyabr tarixli Sərəncamı ilə Tədbirlər Planı təsdiq olunub. Tədbirlər Planına əsasən muxtar respublikada müxtəlif tədbirlərin keçirilməsi nəzərdə tutulub.***

AMEA Naxçıvan Bölməsində plana əsasən, “Əziz Əliyev: həyat yolu” mövzusunda interaktiv dərs keçilib. Muxtar respublikanın 205 məktəbinin izlədiyi dərsi bölmənin sədri, akademik İsmayıl Hacıyev aparıb. Qeyd olunub ki, XX əsrdə Azərbaycan xalqının yetişdirdiyi görkəmli şəxsiyyətlərdən biri olan Əməkdar həkim, tibb elmləri doktoru, professor Əziz Əliyev dərin ağıl və düşüncəyə, rəhbərlik etmək qabiliyyətinə və zəngin həyat təcrübəsinə malik idi. Əziz Əliyev 1897-ci ilin yanvar ayında qədim Azərbaycan torpağı olan İrəvan quberniyasının Hamamlı kəndində anadan olub. İlk təhsilini doğulduğu kənddə alıb. 1908-ci ildən sonra isə Rusiyanın Çita şəhərindəki gimnaziyada oxuyub. 1914-1917-ci illərdə İrəvan kişi gimnaziyasında təhsil alan Əziz Əliyev buranı qızıl medalla bitirdikdən sonra Rusiyanın Sankt-Peterburq şəhərindəki Hərbi Tibb Akademiyasına qəbul edilib. 1918-ci ildə İrəvana gələn Əziz Əliyev sonra ailəsini çətinliklə Naxçıvanın Şərur rayonuna gətirib, bir müddət sonra Şahtaxtı kəndinə köçüb.

Ailənin ağır vəziyyəti və ermənilərin törətdikləri qırğınların fəlakətli nəticələri Əziz Əliyevin Sankt-Peterburqa qayıdaraq təhsilini davam etdirməsinə imkan verməyib. O, 1923-cü ilin may ayına qədər kənddə orta tibb işçisi, həkim köməkçisi kimi çalışıb.

1923-cü ilin mayında Əziz Əliyev Bakıya köçüb. Bundan sonra onun həyatının yeni mərhələsi başlayıb. Bakıda ilk vaxtlar Azərbaycan SSR Xalq Komissarları Şurasında iş icraçısı, həmin idarənin Ümumi şöbə müdirinin müavini, katib köməkçisi və nəhayət, respublika Xalq Komissarları Şurasının katibi vəzifələrini icra edib. O, bu çətin və məsuliyyətli vəzifələrdə çalışmaqla yanaşı, 1923-cü ildən etibarən yarımçıq qalmış ali tibb təhsilini indiki Bakı Dövlət Universitetinin Tibb fakültəsində davam etdirib, 1927-ci ildə universiteti əla qiymətlərlə bitirdiyindən Daxili xəstəliklər kafedrasında ordinator saxlanılıb. Əziz Əliyev sonra aspirant, assistent və dosent kimi fəaliyyət göstərib, 1929-1932-ci illərdə isə Azərbaycan Klinik İnstitutunun rektoru olub.



Naxçıvan şəhər 7 nömrəli tam orta məktəb



Babək rayon Nehrəm kənd 2 nömrəli tam orta məktəb



Sədərək kənd 2 nömrəli tam orta məktəb



Culfa şəhər 3 nömrəli tam orta məktəb

Bildirilib ki, Əziz Əliyev Azərbaycanda səhiyyə işinin təşkilinə xüsusi diqqət yetirib, onun bu sahədəki əvəzsiz xidmətləri tarixə qızıl hərflərlə həkk olunub. O, Xalq Səhiyyə Komissarlığı Müalicə şöbəsinin müdiri, Bakı Səhiyyə Şöbəsinin müdiri, Xalq Səhiyyə Komissarlığında müavin, xalq səhiyyə komissarı və digər vəzifələrdə çalışarkən respublikanın bütün rayonlarını gəzib, bu sahədə problemlərin aradan qaldırılması üçün əməli tədbirlər görüb. 1930-cu ildə indiki Bakı Dövlət Universitetinin Tibb fakültəsinin bazası əsasında Azərbaycan Dövlət Tibb İnstitutunun yaradılmasında yaxından iştirak edən Əziz Əliyev sonrakı çətin mərhələlərdə instituta uğurla rəhbərlik edib.

Həmin illərdə bir tərəfdən respublikada yüksəkixtisaslı həkimlərin hazırlanmasına ciddi ehtiyac duyulması, digər tərəfdən də onların hazırlığını təmin edə bilən kadr çatışmazlığı, Azərbaycan dilində tibbi ədəbiyyatın və dərs vəsaitlərinin azlığı, tədris bazalarının zəifliyi, kitab fondunun lazımi səviyyəyə çatdırılmaması və digər məsələlər həllini gözləyən problemlər idi. Bu problemlərin aradan qaldırılması üçün Əziz Əliyev yorulmadan çalışıb, azərbaycanlı kadrları işə cəlb edərək onların fəaliyyət dairəsini genişləndirib və beləliklə, ana dilində dərsliklər, dərs vəsaitləri, monoqrafiya və tövsiyələrin yazılmasına nail olub.

Əziz Əliyev hansı ictimai, inzibati, təşkilati işdə çalışmasından asılı olmayaraq, elmi axtarışlarını bir an belə dayandırmayıb. İnstitutu bitirəndən iki il sonra – 1929-cu ildə namizədlik, 1937-ci ildə isə doktorluq dissertasiyalarını müdafiə edib. O, 1941-ci il mayın 13-də SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının Rəyasət Heyəti nəzdində təşkil edilmiş Elmi Şuranın üzvü, 1956-cı ildə isə professor vəzifələrinə seçilib.

Görkəmli alim 87 elmi əsərin müəllifidir. Bu əsərlərin böyük bir hissəsi təbabətin ayrı-ayrı sahələrinə, bir qismi isə tarixi və siyasi problemlərə həsr olunub. Onun elmi fəaliyyəti çoxşaxəli idi. Təsadüfi deyil ki, akademik Mustafa bəy Topçubaşov Əziz Əliyevi Azərbaycan səhiyyəsinin inkişaf tarixinin bir mərhələsi adlandırıb. Bu mərhələ böyük və məsul bir dövrü əhatə edir. Bu, həmin dövrdür ki, səhiyyə sahəsində böyük və genişmiqyaslı işlər görülür, beləliklə, Azərbaycanın səhiyyəsi dirçəlir, milli kadrların böyük dəstəsi hazırlanırdı.

Akademik İsmayıl Hacıyev deyib ki, elmi-pedaqoji fəaliyyəti ilə yanaşı, görkəmli alimin ictimai fəaliyyəti də Vətənə, xalqa sədaqətlə xidmətdən ibarət olub. O, 1941-1942-ci illərdə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi, 1942-1948-ci illərdə isə Dağıstan MSSR Vilayət Partiya Komitəsinin birinci katibi vəzifələrində çalışaraq özünü bacarıqlı dövlət xadimi kimi göstərə bilib. Əziz Əliyev 1950-1951-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti Sədrinin birinci müavini, sonrakı illərdə Azərbaycan SSR Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru, həmçinin Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru vəzifələrində işləyib. Görkəmli dövlət xadimi I-II çağırış SSRİ Ali Sovetinin, I-III çağırış Azərbaycan SSR Ali Sovetinin, II çağırış Dağıstan MSSR Ali Sovetinin deputatı olub.

Əziz Əliyevin Vətən və xalq qarşısındakı xidmətləri görkəmli həkim və alim, əla səhiyyə təşkilatçısı, səriştəli rəhbər və təcrübəli dövlət xadimi kimi yüksək qiymətləndirilib.

Professor Əziz Əliyevin sevimli həyat yoldaşı Leyli xanımla birgə böyütdükləri övladları valideyn tərbiyəsinə layiq və sadiq oldular. Ən əhəmiyyətlisi də odur ki, onlar atalarının himayəsinə arxalanmadan, heç kimdən kömək gözləmədən istedadları, bacarıqları hesabına ucalmış və hər biri öz peşəsi sahəsində böyük nailiyyətlər qazanıblar.

1998-ci il may ayının 14-də görkəmli alim, ictimai xadim Əziz Əliyevin anadan olmasının 100 illik yubileyi dövlət səviyyəsində qeyd olunub. Yubiley tədbirində çıxış edən ümummilli liderimiz Heydər Əliyev alimin şəxsiyyətini yüksək qiymətləndirərək deyib: ***“Əziz Əliyev Azərbaycan xalqının görkəmli nümayəndələrindən biridir. O lap əvvəldən qeyri-adi insan idi. O həm həkim, həm alim, həm də səhiyyə təşkilatçısı idi. O, dövlət xadimi, nazir, çətin illərdə Azərbaycanın rəhbərlərindən biri, XX əsrin ən ağır illərində Dağıstanın birinci rəhbəri idi, Moskvada, sonra isə Azərbaycanda məsul işdə çalışmışdı. Ancaq eyni zamanda onun həyatı heç də asan keçmirdi, maneələrlə, çətinliklərlə, özünə qarşı edilən bir çox haqsızlıqlarla rastlaşırdı. Amma bunların hamısını aradan qaldırır və yolundan dönmürdü”.***

Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu elmin himayə olunması, xalqımızın dövlət və elm xadimlərinin elmi və nəzəri irslərinin yaşadılması ideyasının davamı olaraq ölkə Prezidenti cənab İlham Əliyev 2006-cı il dekabr ayının 5-də “Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 110 illik yubileyinin keçirilməsi haqqında” Sərəncam imzalayıb. Görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 110 illik yubileyi Naxçıvan Muxtar Respublikasında da geniş qeyd olunub. Yubiley tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov professor Əziz Əliyevin keçdiyi həyat yolunu nəsillərə nümunə kimi dəyərləndirərək deyib: ***“Əziz Əliyev dərin biliyə, yüksək təşkilatçılıq qabiliyyətinə malik bir insan kimi nəinki səhiyyəmizin inkişafına böyük töhfələr vermiş, eyni zamanda dövlət idarəçiliyində kadrlarla işləməyin, kütləni səfərbər etməyin, rəhbər-xalq münasibətlərinin bu gün də etalon ola biləcək ictimai praktikasını yaratmış, Azərbaycan elminin yeni istiqamətlərini müəyyənləşdirmiş, bu sahələrin inkişafına nail olmuşdur. Əziz Əliyevin həyatını və fəaliyyətini əks etdirən tarixi sənədləri izlədikcə onun dərin təfəkkürünə, işgüzarlığına, ağır sınaqlardan mətanətlə çıxmasına heyran qalmamaq mümkün deyil. Bu böyük şəxsiyyətin bütün fəaliyyəti xalqa layiqli xidmət nümunəsi idi”.***

Böyük alim, görkəmli dövlət xadimi Əziz Əliyevin xatirəsi muxtar respublikada əbədiləşdirilib, Naxçıvan şəhərindəki küçələrdən birinə və Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasına alimin adı verilib.

**Muxtar MƏMMƏDOV**

## 2016-cı ilin yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



*Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində ötən ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, general-leytenant Əhməd Əhmədov açaraq məruzə edib.*

Bildirilib ki, ötən il muxtar respublikada vətəndaşların və dövlətin qanuni mənafelərinin qorunması sahəsində həyata keçirilən tədbirlər davam etdirilib, kriminogen duruma tam nəzarət olunub, ictimai qaydanın qorunması və asayişin təmin edilməsi istiqamətində əsaslı işlər görülüb.

Hesabat dövründə daxili işlər və prokurorluq orqanları üzrə 29 cinayət faktı qeydə alınıb. 29 cinayət faktına görə 25 cinayət işi başlanıb.

Vurğulanıb ki, cinayətlərin ümumi sayının artmasına baxmayaraq, oğurluq cinayətləri 50 faiz, korrupsiya ilə bağlı cinayətlər 100 faiz, vəzifə səlahiyyətlərini aşma ilə bağlı cinayətlər 100 faiz, ümumiyyətlə, dövlət hakimiyyəti əleyhinə olan cinayətlər 100 faiz azalıb. Təqsirləndirilən şəxslərin axtarışı istiqamətində aparılmış əməliyyat-axtarış tədbirləri nəticəsində istintaqdan və məhkəmədən yayınan 5 nəfərdən 4-nün yeri müəyyənləşdirilərək tutulub, axtarış işinin göstəriciləri 80 faiz təşkil edib. Bu dövrdə əməkdaşların icraatında 21 cinayət işi olub. Onlardan 14-ü ittiham aktı ilə məhkəməyə göndərilib, 2 cinayət işinin icraatına xitam verilib, 5 cinayət işinin istintaqı isə haliyədə davam etdirilir. Məhkəmə və prokurorluq orqanları tərəfindən əlavə istintaqa qaytarılan cinayət işləri olmayıb, dəymiş maddi ziyanın ödənilməsi 100 faiz təşkil edib. Avtomobillərin texniki vəziyyətinə xüsusi fikir verilərək xeyli sayda nasaz avtomaşının istismarına qadağa qoyulub, aşkar olunan 23 min 820 yol hərəkəti əleyhinə olan inzibati xəta üzrə qanunauyğun tədbirlər görülüb. Əhalidən qanunsuz saxlanılan silahların yığılması istiqamətində həyata keçirilən tədbirlər ardıcıl davam etdirilərək vətəndaşlar tərəfindən 115 ədəd odlu silah, xeyli sayda döyüş sursatı və hərbi ləvazimat könüllü olaraq polis orqanlarına təhvil verilib.

Əhməd Əhmədov deyib ki, daxili işlər orqanlarının əməliyyat-xidməti fəaliyyətində olan nöqsan və çatışmazlıqlar qısa müddətdə aradan qaldırılmalı, cinayətkarlığa qarşı mübarizədə əldə olunmuş müsbət nəticələrin inkişaf etdirilməsi ciddi nəzarətdə saxlanılmalı, şəxsi heyətin peşəkarlığının artırılması istiqamətində tədbirlərin görülməsi davam etdirilməlidir.

Sonra məruzə ətrafında çıxışlar olub.

Kollegiya iclasına yekun vuran daxili işlər naziri, general-leytenant Əhməd Əhmədov əmin olduğunu bildirib ki, şəxsi heyət qanunvericiliklə üzərinə düşən bütün vəzifələrin, qarşıya qoyulan tələblərin, verilən tapşırıqların öhdəsindən bundan sonra da layiqincə gələcək, sabitliyin, əmin-amanlığın, habelə dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən etibarlı qorunması üçün qüvvə və bacarığını əsirgəməyəcək, cari ili yüksək göstəricilərlə başa vuracaqdır.

* * *

*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində keçirilən kollegiya iclasında ötən ilin yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib.*

Tədbirdə muxtar respublikanın təhsil naziri Məmməd Qəribov məruzə edərək ötən il və bu ilin əvvəlində istifadəyə verilən təhsil obyektləri haqqında danışıb, bu obyektlərin ən müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunmasını dövlətimizin bu sahəyə qayğısı kimi dəyərləndirib.

Muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələrin təşkili istiqamətində görülən işlərdən də danışan nazir qeyd edib ki, muzeylərlə 200-dən çox məktəbin virtual əlaqəsi yaradılıb, interaktiv açıq dərslər keçilib. Nazirlik tərəfindən ümumtəhsil məktəblərində müəllimlərin informasiya texnologiyalarından istifadə bacarıqlarının artırılması məqsədilə 10 müxtəlif ali təhsil ocaqlarında keçirilən kurslarda 510 müəllimin iştirakı təmin edilib. Bu ilin avqust-sentyabr aylarında 202 min 468 nüsxə, eyni zamanda məktəbəhazırlıq qruplarına cəlb olunmuş uşaqların pulsuz dərsliklərlə təminatı məqsədilə 11 min 754 ədəd dərslik ümumtəhsil məktəblərinə verilib. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi, Naxçıvan Dövlət və "Naxçıvan" universitetləri, Naxçıvan Müəllimlər İnstitutu və orta ixtisas təhsili müəssisələrində çalışan elmi dərəcəli müəllimlər tərəfindən 2016-cı il ərzində ümumtəhsil məktəblərində 1486 saat nümunəvi dərs tədris olunub.

Ötən ilin iyun ayında müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması, onların fəaliyyətinin stimullaşdırılması və əməyinin qiymətləndirilməsinin təmin olunması məqsədilə attestasiya keçirilib. Muxtar respublikanın ayrı-ayrı rayonlarından müraciət etmiş 1142 müəllimdən 38 nəfəri iştirak etməyib, 58 müəllim isə müəyyən olunmuş bal həddini aşa bilməyib. 2016-cı ilin sentyabr ayında keçirilən təhsil yarmarkasında 341 gənc kadr göndəriş alaraq müəllim kimi fəaliyyətə başlayıb.



2015-2016-cı tədris ilində ümumi orta təhsil bazası üzrə məktəbi bitirən 148 nəfər fərqlənmə şəhadətnaməsinə, tam orta təhsil bazası üzrə isə məzunlardan 14-ü qızıl, 13-ü isə gümüş medallara layiq görülüb. Qəbul imtahanlarında məzunlardan 12-si 600-650, 15-i isə 650-700 arası bal toplayıblar. 2016-cı ildə XI sinfi bitirən 3138 məzundan 2469-u, yəni məzunların 78,7 faizi ali və orta ixtisas məktəblərinə sənəd verib. Ali və orta ixtisas məktəblərinə keçirilən qəbul imtahanlarında iştirak edən məzunlardan 1538-i, yəni sənəd verənlərin 60,3 faizi tələbə adını qazanıb. Ali məktəblərə qəbul olunanların 338-i imtahanlarda daha yüksək nəticə göstərərək 500-700 intervalında bal toplayıb. Yüksək bal toplayanlardan 4-ü Prezident təqaüdünə layiq görülüb.

Əldə olunan nailiyyətlərlə yanaşı, işdə buraxılan nöqsanlara da toxunan nazir bu nöqsanların 2017-ci ildə aradan qaldırılacağına əminliyini ifadə edib.

Sonra məruzə ətrafında çıxışlar olub.



*Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatında 2016-cı ilin yekunlarına həsr olunmuş yığıncaqda Ombudsman Ülkər Bayramova məruzə edib.*

Bildirilib ki, 2016-cı ildə də Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili fəaliyyətini, əsasən, insan hüquqlarının müdafiəsi və pozulmasının qarşısının alınması, daxil olan müraciətlərin araşdırılması və müvafiq tədbirlərin görülməsi, elmi-analitik fəaliyyətin, əhalinin müxtəlif sosial qruplarına ünvanlanan və insan hüquqlarının müxtəlif istiqamətlərini əks etdirən hüquqi maarifləndirici tədbirlərin həyata keçirilməsi istiqamətində davam etdirib.

Ötən il hərbi qulluqçuların, məhkumların və əhalinin digər sosial qruplarının hüquqlarının müdafiəsi və bu sahədə hüquqi maarifləndirmə diqqət mərkəzində saxlanılıb, Əlahiddə Ümumqoşun Ordusu, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası, Ədliyyə Nazirliyi və Müvəkkilin preventiv mexanizm yurisdiksiyasının şamil olunduğu digər orqanlar ilə birgə hazırlanmış tədbirlər planına əsasən, hüquqi maarifləndirici tədbirlər həyata keçirilib, o cümlədən aid müəssisələrə hüquqi vəsaitlər təqdim olunub.

"Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nda nəzərdə tutulmuş tədbirlərin muxtar respublikada tətbiqi vəziyyətinin öyrənilməsi, habelə görülən işlərin müzakirəsi və əlaqələndirilməsi məqsədilə aid qurumların iştirakı ilə müvafiq konfranslar keçirilib, proqramın icrası təmin edilib.

Bildirilib ki, 2016-cı il ərzində Müvəkkil təsisatı tərəfindən, ümumilikdə, müxtəlif sosial qruplara ünvanlanmış 77 tədbir keçirilib.

"Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Qanuna edilən 22 iyul 2016-cı il tarixli dəyişikliklərə əsasən, preventiv mexanizm funksiyalarının qanunsuz miqrantların saxlanılması mərkəzinə də şamil edilməsinin təsisatın fəaliyyətinin təkmilləşdirilməsinə, həmçinin insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi işinin daha səmərəli təşkilinə xidmət etdiyini diqqətə çatdıran Ombudsman bildirib ki, 2016-cı ildə Müvəkkilin preventiv mexanizm yurisdiksiyasının şamil olunduğu orqanlar üzrə, ümumilikdə, 31 müəssisədə mütəmadi olaraq və əvvəlcədən xəbərdarlıq edilmədən 102 başçəkmə həyata keçirilib.

Qeyd olunub ki, ötən ildə də informasiya və ictimaiyyətlə əlaqələrin təşkili istiqamətində işlər davam etdirilib. Müvəkkilin rəsmi internet səhifəsində informasiyaların mütəmadi olaraq yenilənməsi, elektron kitabxana bazasının daha da zənginləşdirilməsi, muxtar respublikada insan hüquqları ilə bağlı həyata keçirilən tədbirlərin, o cümlədən müvəkkil və təsisatın fəaliyyətinin işıqlandırılması, elektron müraciət səhifəsinin fəaliyyəti daim diqqət mərkəzində saxlanılıb.

Ötən il ərzində beynəlxalq qurumların Azərbaycan üzrə ofisləri, xarici dövlətlərin ölkəmizdəki səfirliklərinin nümayəndələri ilə bir sıra görüşlər keçirilib, müvəkkil aparatında beynəlxalq təcrübə mübadiləsi sahəsindəki əlaqələrin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilib.

Sonra məruzə ətrafında müzakirələr olub.

**Xəbərlər şöbəsi**

## Dövlət qulluqçularının andiçmə mərasimi olub

*Yanvarın 13-də Naxçıvan şəhərindəki Dövlət Bayrağı Muzeyində dövlət qulluğuna qəbul olunan dövlət qulluqçularının andiçmə mərasimi keçirilib.*

Andiçmə mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən muxtar respublika İqtisadiyyat Nazirliyi, Dövlət Statistika Komitəsi və Sahibkarlığa Kömək Fondunda vakant vəzifələrin tutulması üçün elan olunmuş müsabiqələrdə müvəffəqiyyət qazanan 49 nəfər iştirak edib.

Mərasimdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri İsmayıl Qəribli çıxış edərək ölkəmizdə, eləcə də muxtar respublikada bütün sahələr kimi, dövlət qulluğu sahəsinin də qayğı ilə əhatə olunduğunu, müasir tələblərə cavab verən dövlət idarəetmə sisteminin yaradıldığını deyib.



İsmayıl Qəribli qeyd edib ki, dövlət orqanları üçün müasir inzibati binaların tikilib istifadəyə verilməsi, bacarıq və peşəkarlığı yüksək olan dövlət qulluqçularının təltif edilməsi, dövlət idarəçiliyi sistemində yeni texnologiyaların tətbiqi, "Elektron hökumət"in, Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi sistemlərinin qurulması bunun bariz nümunəsidir.

Muxtar respublikada dövlət qulluğunun səmərəli təşkili və idarə olunması məsələlərindən də danışan İsmayıl Qəribli bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın yaradılması vətəndaşların mərkəzləşdirilmiş qaydada dövlət qulluğuna qəbulunun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsinə geniş imkanlar açıb. Təkcə 2016-cı il ərzində 249 nəfər komissiyanın keçirdiyi müsabiqələrdə uğur qazanaraq dövlət orqanlarında vakant vəzifələrə təyin olunub.

Sonra müsabiqəni uğurla başa vurmuş və dövlət orqanlarında işə başlamış namizədlər Azərbaycan Respublikasına sadiq olacaqlarına, onun Konstitusiyasına dönmədən əməl edəcəklərinə, dövlət sirrini və xidməti sirri qoruyacaqlarına, dövlət qulluğunun onlara verdiyi hüquqları və üzərlərinə qoyduğu vəzifələri qərəzsiz, vicdanla, yalnız qanunauyğun surətdə və dövlətin mənafeyi naminə həyata keçirəcəklərinə təntənəli surətdə and içiblər.

Sonra andın mətnini imzalayan dövlət qulluqçularına andiçmə vərəqələri təqdim edilib, xatirə şəkli çəkdirilib.

Tədbir iştirakçıları Dövlət Bayrağı Muzeyi ilə tanış olublar.

**Səbuhi HÜSEYNOV**

# Naxçıvan idmançılarını yeni-yeni nailiyyətlər gözləyir

## *Muxtar respublikamızda idmana göstərilən qayğı, yaradılan müasir infrastruktur belə deməyə əsas verir*

***Bədən tərbiyəsi və idman muxtar respublikada prioritet istiqamətlərdən sayılır. 20 ildən çoxdur ki, bu diyarda idmanın inkişafı istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirilir, uşaq, yeniyetmə və gənclərin idmana cəlbi üçün bir sıra işlər görülür, yeni-yeni idman obyektləri həyata vəsiqə alır.***

Təsadüfi deyil ki, hər il Naxçıvan Muxtar Respublikası Ali Məclisində bu sahə ilə bağlı müşavirələr keçirilir, həmin müşavirələrdə konkret istiqamətlər müəyyənləşdirilir. Bunun nəticəsidir ki, bu gün muxtar respublika idman diyarı kimi tanınır, idmançılarımız müxtəlif beynəlxalq tədbirlərdə parlaq qələbələr qazanır, ölkəmizin idman şərəfini qoruyur, üçrəngli bayrağımızı beynəlxalq arenalarda yüksəklərə qaldırırlar. Naxçıvanda bədən tərbiyəsi və idman sahəsində görülən işlərin əsas hədəflərindən biri də fiziki və mənəvi cəhətdən sağlam gəncliyin yetişdirilməsidir. Çünki sağlam gənclik sağlam və mübariz əsgər, döyüşçü, bir sözlə, xalqımızın gələcəyi deməkdir. Elə bu səbəbdəndir ki, ibtidai siniflərdən başlayaraq muxtar respublikada bu sahəyə xüsusi diqqət yetirilir, uşaqlar idmanın müxtəlif növlərinə cəlb olunurlar.

Ötən hər bir il muxtar respublikada keçirilən müxtəlif səviyyəli yarışlarla, yeni-yeni uğurlarla yadda qalır, idman sahəsində yeni istiqamətlər üzrə işlər görülür. Bu baxımdan 2016-cı il də bir sıra əlamətdar hadisələrlə xatırlanacaq.

Yola saldığımız ildə ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş turnirlərdə 1000-dən çox idmançı iştirak edib ki, bu da digər illərlə müqayisədə yüksək nəticədir. Bu turnirlərdə idmançılarımızın böyük ruh yüksəkliyi ilə iştirak etməsi, peşəkarlıq nümayiş etdirməsi bir daha göstərdi ki, dahi rəhbərimiz tərəfindən əsası qoyulan idmana qayğı siyasəti davam etdirilir.

Naxçıvan bu gün beynəlxalq idman yarışlarının keçirildiyi məkana çevrilib. Ötən ilin idman sahəsində ən yaddaqalan tədbirlərindən biri "Naxçıvan–2016" Beynəlxalq Şahmat Festivalı oldu. Beynəlxalq turnirdə 11 ölkədən 300-dən çox qrossmeysterin, şahmat ustalarının, FİDE ustalarının və naxçıvanlı zəka sahiblərinin qələbə uğrunda mübarizəsi maraqlı səhnələrlə yadda qalıb. Turnirdə Naxçıvan şahmatçılarının parlaq qələbələr əldə etməsi qədim diyarımızda bu sahəyə göstərilən qayğının nəticəsidir. Turnir ərəfəsində xarici qonaqların muxtar respublikanın idman obyektləri ilə tanışlığı zamanı bir daha məlum oldu ki, Naxçıvan müasir idman infrastrukturuna görə nəinki regionda, hətta bütün dünyada nümunə olacaq yerlərdən biridir. İdmançılar etiraf edirdilər ki, heç bir yerdə idmana və idmançıya bu qədər qayğı, hörmət və ehtiram görməyiblər.





2016-cı ilin daha bir mötəbər idman tədbiri isə futbol üzrə "Heydər Əliyev Kuboku" turniridir. Bu turnirdə ölkənin 4 komandasının 100-dən çox futbolçusu mübarizə aparıb. Bundan başqa, may ayında İlham Əliyev adına Olimpiya-İdman Kompleksində boks, sərbəst güləş, kikboksinq, basketbol, karate-do üzrə turnirlər, Beynəlxalq Paralimpiya İdman Festivalı keçirilib. Ötən il İlham Əliyev adına Olimpiya-İdman Kompleksi usta ağır atletlər arasında Avropa çempionatına da ev sahibliyi edib. Qitə birinciliyində 21 ölkədən 210 idmançı mübarizə aparıb. Bu idman yarışlarının yüksək səviyyədə təşkili və keçirilməsi bir daha göstərir ki, artıq muxtar respublikada beynəlxalq tədbirlərin keçirilməsi üçün kifayət qədər təcrübə formalaşıb.

Ötən il yeniyetmə və gəncləri zərərli vərdişlərdən uzaq tutmaq, onları idmana cəlb etmək üçün bir sıra addımlar atılıb, boks, kikboksinq, basketbol, voleybol, pauerliftinq, qaydasız döyüş növü (MMA), üzgüçülük, qaçış, stolüstü tennis, karate-do üzrə yarışlar keçirilib, bu yarışlarda uşaq, yeniyetmə və gənclərin kütləvi iştirakı təmin olunub. Bu yarışlar həm də ölkə miqyaslı yarışlar üçün məşqçilərə geniş seçim imkanı yaradıb. Onlar yaradılan bu imkanlardan istifadə edərək respublika miqyaslı və beynəlxalq yarışlara güclü idmançıları çıxarıblar. Peşəkar məşqçilərin muxtar respublikaya dəvət olunması və seminarların keçirilməsi qazanılan uğurların əsas səbəblərindəndir.

Geridə qoyduğumuz ildə "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə keçirilən yarışlar iştirakçıların hazırlıq səviyyəsini bir daha nümayiş etdirib, muxtar respublika məktəbliləri ölkə miqyaslı poliatlon yarışlarında qalib yerlərdən birini tutublar. Poliatlon yarışlarında məktəblilərin fəal iştirakı bir daha onu göstərdi ki, Naxçıvanda artıq 20 ildən çoxdur, gənclərin hərbi-vətənpərvərlik ruhunda yetişdirilməsi istiqamətində görülən işlər nəticəli və effektivdir. Artıq hərbi xidmətə yollanan hər bir gənc xidmətin ilkin mərhələsində bütün sınaqlardan keçmək üçün hazırdır və bu, böyük uğurdur.



Bədən tərbiyəsi və idman sahəsində qazanılan uğurlara bir daha nəzər salanda görürük ki, ötən il ölkədaxili və beynəlxalq turnirlərdə Naxçıvan idman məktəbinin yetirmələri öz sözlərini deyə biliblər. İdmanın müxtəlif sahələrində qələbə qazanan idmançılarımızın qarşısında indi daha böyük hədəflər durur. Bu hədəflər sırasında dünyanın ən mötəbər yarışlarında qələbə qazanaraq qızıl medalla ölkəmizə qayıtmaq da var, bayrağımızı yüksək zirvələrdə dalğalandırmaq da. 2016-cı ildə idmançılarımızın dünya və Avropa çempionatlarında uğur qazanması nailiyyətlərin davamlı olacağından xəbər verir. Şübhəsiz ki, göstərilən dövlət qayğısı, yaradılan müasir infrastruktur qazanılacaq qələbələrin ən böyük qarantı olacaqdır. Əldə edilən uğurlarda Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə bərabər, muxtar respublikada fəaliyyət göstərən idman federasiyaları və idman qurumlarının da rolu böyükdür. Bunun nəticəsidir ki, ötən il muxtar respublikada 200-dən artıq yarış, turnir təşkil edilib, həmin idman tədbirlərində minlərlə yeniyetmə və gənc mübarizə aparıb, idmançılarımız beynəlxalq yarışlarda 69, Azərbaycan birinciliklərində 39 medal qazanıblar.

Bu gün dünyanın inkişaf etmiş ölkələri bütün sərvətləri, insan kapitalı və digər amilləri ilə bərabər, idmanı ilə də tanınır. İdman ölkələr arasında dostluq, əməkdaşlıq münasibətlərinin yaranmasında əsas faktorlardan biridir. İdman tarixinə nəzər yetirsək görərik ki, bəzi ölkələri hətta onun güclü idmançıları ilə tanıyıb, bu ölkələri sevib, oraya üz tutublar. Bunda da məqsəd belə olub ki, idman qəhrəmanlarının ölkələrini yaxından görüb, tanısınlar. Beləliklə, idman dolayı yolla olsa da, dünyada turizmin inkişafına öz töhfəsini verib. Əminliklə demək olar ki, gələcək illərdə həmyerlilərimiz beynəlxalq yarışlarda daha parlaq qələbələr qazanaraq doğma Naxçıvanımızı bütün dünyada tanıdacaqlar.

Ceyhun MƏMMƏDOV

# Naxçıvanda növbəti humanitar aksiyalar keçirilir

***Bakı şəhərində fəaliyyət göstərən Akademik Mirəsədulla Mirqasımov adına Respublika Klinik Xəstəxanasının yüksəkixtisaslı həkim heyəti yanvar ayının 13-də Şərur rayonunda növbəti humanitar aksiyaya start verib.***

Şərur Rayon Mərkəzi Xəstəxanasında təşkil olunan aksiyada xəstəxananın baş həkimi Telman İbadovun rəhbərliyi ilə 22 həkim və orta tibb işçisi iştirak edir. Həkim cərrahlardan Fariz Camalov, Zahid Zahidov, ginekoloq Zenfira İbadova, kardioloq Sevil Məmmədova, otolarinqoloq Məzahir Quliyev, nevropatoloq Elnarə Məsiyeva, uroloq Emin Məmmədov, nefroloq Fazilə Səlimova, endokrinoloq Gülnar Qasımova və başqalarının səyi ilə aksiyanın ilk günü 342 nəfər ambulator müayinə ilə əhatə olunub. Müayinə olunmaq üçün xəstəxanaya müraciət edən pasiyentlərin hamısını tibbi xidmətlə təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən lazımi şərait yaradılıb. Şərur Rayon Mərkəzi Xəstəxanasının tibbi heyəti də Bakıdan gələn həkimlərlə birgə əhaliyə səhiyyə xidməti göstərir.



Aztəminatlı ailələrdən cərrahi müdaxiləyə ehtiyacı olan 20 nəfər üzərində ümumi cərrahi, proktoloji, uroloji, burun-qulaq-boğaz və digər əməliyyatlar aparılıb. Əməliyyatlar uğurla davam edir, xəstələr bir gün ərzində müşahidə altında saxlanılır. Aksiya zamanı pasiyentlər həmçinin hematoloji, uroloji, nefroloji, proktoloji, oftalmoloji və digər tibbi xidmətlərlə də əhatə olunurlar.

Heyət yerli həkimlərə tibbi avadanlıqların işləmə qaydalarını da öyrədir. Laboratoriyada ümumi analizlərin olunması, infeksiyaların təyini, aparatların işləmə mexanizmi yerli həkim və tibb işçilərinə izah edilir.

Aksiyada iştirak edən Şərur rayonunun Aşağı Yaycı kənd sakini Əsgər Həkimov bildirib ki, onun cərrahi müdaxiləyə ehtiyacı var idi. Rayon Mərkəzi Xəstəxanasında belə bir aksiyanın keçirilməsi bu ehtiyacın ödənilməsinə imkan verib. Aksiyanın ilk günü üzərində cərrahi əməliyyat aparılıb. O, palataya yerləşdirilib, hazırda özünü yaxşı hiss edir.

Müayinə və müalicə ilə əhatə edilən Gülnar Hadıyeva, Zərəfşan Bağırova, Nüsrət Əhədov və başqaları belə xeyirxah aksiyaların təşkilatçı və icraçılarına minnətdarlıqlarını bildiriblər.

Humanitar aksiya iki gün davam edəcəkdir.

* * *

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə Bakı şəhərində fəaliyyət göstərən yüksəkixtisaslı həkim briqadalarının dəvət olunaraq muxtar respublikamıza gətirilməsi və aztəminatlı ailələrdən olan xəstələrin başqa ünvanlara üz tutmadan müayinəsinin və cərrahiyyə əməliyyatlarının təşkili davam etdirilir.

Bölgədə analoqu olmayan Naxçıvan Muxtar Respublika Xəstəxanasında qurulmuş müasir tibbi avadanlıq və cihazlar, yaradılmış şərait burada müxtəlif müayinə və müalicə metodlarının tətbiqinə imkan verir.

Yaranmış ənənə cari ildə də davam etdirilir. Türkiyə Respublikası Hacəttəpə və Ankara Tibb universitetləri Endokrinologiya və metabolizma kafedrasında, həmçinin ABŞ-ın Georgiya ştatındakı Emori Universitetində təhsil almış, Türkiyə, ABŞ və Avropa Endokrinoloji Cəmiyyətinin üzvü, hazırda Bakı şəhərindəki "HB Güvən" klinikasında tibbi fəaliyyət göstərən Rövşən Həsənovun rəhbərliyi ilə 8 nəfərlik yüksəkixtisaslı həkim heyəti yanvarın 13-dən Naxçıvan Muxtar Respublika Xəstəxanasında ikigünlük humanitar aksiyaya başlayıb. Yüksəkixtisaslı uşaq cərrahı Allahverdi Musayev, plastik, estetik və rekonstruktiv cərrah Elçin Abdullayev, burun-qulaq-boğaz həkimi Xəyyam Məsiyev, ginekoloq Rəşad Sultan və başqaları heyətdə təmsil olunurlar.

Aksiya başlanmazdan əvvəl keçirilən tədbirdə xəstəxananın Endokrinologiya şöbəsinin müdiri Aysel Dünyamalıyeva bildirib ki, səhiyyə sisteminin inkişafına göstərilən dövlət qayğısı bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi, infrastrukturun yenidən qurulması tibbin əksər sahələrində mühüm irəliləyişlərə şərait yaradıb. Keçirilən növbəti humanitar aksiyada müxtəlifixtisaslı həkimlərin iştirakı xəstələrin hərtərəfli müayinə və müalicəsinə imkan verir. Bu, yerli həkimlərin peşə bacarığının yüksəldilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Müasir müalicə metodlarının öyrənilməsi və tətbiqi üçün yüksəkixtisaslı mütəxəssislərin iş təcrübəsindən istifadə olunur.

Sonra pasiyentlər endokrinologiya və metabolizma xəstəlikləri üzrə tibbi müayinələrdən keçiriliblər. Onlarda müşahidə olunan zob düyünlərinin biopsiyası və ultrason müayinələri aparılıb, şəkər xəstəlikləri və onların risk amilləri araşdırılıb, xəstələr həmçinin uroloji, ginekoloji müayinələrdən keçirilib, onlara tibbi məsləhət və tövsiyələr verilib. İlk gün 15 nəfər üzərində müxtəlif cərrahiyyə əməliyyatı aparılıb. Aksiya bu gün də davam edəcəkdir.

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti*

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 34